# Qardaş dəstəyi

## Azərbaycan Şimali Kipr Türk Cümhuriyyətinin beynəlxalq səviyyədə inteqrasiyasına böyük töhfələr verir

**Azərbaycanın xarici siyasətində türk dövlətləri ilə əlaqələrin inkişafı, bütövlükdə türk dövlətləri arasında inteqrasiyanın dərinləşdirilməsi prioritet istiqamət təşkil edir.**

Fevralın 14-də Milli Məclisdə andiçmə mərasimində Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" sözləri isə bir daha göstərdi ki, Azərbaycan bundan sonra da türk dövlətlərinin birliyi ideyasına və amallarına sadiq qalacaq.

İndiyə kimi öz təşəbbüsləri, həyata keçirdiyi layihələr ilə türk dövlətləri arasında münasibətlərin daha da dərinləşdirilməsinə böyük töhfələr verən Azərbaycan eyni zamanda Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) ilə əlaqələrin inkişafı və bu respublikanın dünyaya inteqrasiyası üçün gərəkən bütün addımları atır. Azərbaycanın bu istiqamətdə təşəbbüsləri isə hələ illər öncəyə söykənir. Belə ki, 1997-ci ildən ŞKTC-nin Bakıda nümayəndəliyi fəaliyyət göstərir. Prezident İlham Əliyev hər zaman Şimali Kiprin təcrid vəziyyətindən çıxarılması üçün lazımi addımlar atıb. Bakıdan Lefkoşaya təyyarə reysi açılıb, Bakıda Azərbaycan və ŞKTC sahibkarlarının iştirakı ilə biznes-forum keçirilib. Lefkoşanın mərkəzi prospektlərindən birinə isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verilib.

Son illərdə ŞKTC ilə əlaqlərin inkişaf etdirilməsi və bu ölkənin dünyaya inteqrasiyası ilə bağlı işlər daha da sürətlənib. 2022-ci ilin noyabr ayında Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Azərbaycanın təşəbbüsü və dəstəyi ilə ŞKTC təşkilata müşahidəçi üzv statusunda qəbul olunub. Ötən ilin oktyabr ayında Bakıda "Şimali Kipr Türk Respublikası Mədəniyyət və Təqdimat Günləri" keçirilib və bu münasibətlə ŞKTC Prezidenti Ersin Tatarın başçılığı isə bu ölkənin rəhbərləri tarixdə ilk dəfə olaraq Azərbaycana səfər ediblər. Ötən ilin noyabrında isə Bakıda ŞKTR-in müstəqilliyinin 40-cı ildönümü qeyd olunub.

Bir neçə gün əvvəl isə Azərbaycanla ŞKTC arasında əlaqələrin inkişafı istiqamətində daha bir nümunəvi addım atılıb. Azərbaycan Milli Məclisində ŞKTC ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılıb. Aprelin 6-da Azərbaycan Prezidenti İlham Əliyevə zəng edən ŞKTC Prezidenti Ersin Tatar parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Dövlətimizin başçısı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının xalqlarımız arasında əlaqələrin daha da güclənməsinə töhfə verəcəyini qeyd edib. Türkiyənin vitse-prezidenti Cövdət Yılmaz da Azərbaycan Milli Məclisinin ŞKTC ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılması haqqında qərarını alqışlayıb.

Bu ilin iyul ayında Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Prezident İlham Əliyevin dəvəti ilə Zirvə görüşündə ŞKTC Prezidenti də iştirak edəcək.

Göründüyü kimi, Azərbaycan Şimali Kipr Türk Cümhuriyyətinə öz qardaş dəstəyini əsirgəmir və ŞKTC-nin təcriddən çıxmasına və inteqrasiyasına layiqli töhfələr verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.5.